*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 8 avqust 2020-ci il № 47 (2465) Qiyməti 30 qəpik


# Sən qüdrətli Azərbaycan Ordusunun əsgərisən!



*Döyüş əzmi, qələbə ruhu Vətən sevgisindən güc alan, qətiyyətli, cəsarətli, igid Azərbaycan əsgəri! Ulu öndər Heydər Əliyevin nizami ordu kimi formalaşdırdığı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ən yüksək səviyyədə inkişaf etdirdiyi qüdrətli Azərbaycan Ordusunun əsgəri!*

Sən də yeniyetməliyindən Vətənə Ana Vətən demisən. Bu kəlmənin müqəddəsliyini düşüncələrinə, düşüncələrindən ürəyinə, ürəyindən ömrünə köçürmüsən. Sən bu müqəddəsliyin əsgərisən. Vətəni hamı sevir. Bir-birinə bənzəməyən bu sevgilərin hamısı sizin Vətən sevginizdən barınır. Hamı bilir ki, əsgərin Vətən sevgisi bütün sevgilərdən üstün sevgidi. Vətən sevginiz müqəddəsliyə müqəddəs xidmətin işığı olduğuna görə düşüncələrin Vətənin hüdudlarından dikəlir. Müharibə torpaqlarımız işğaldan azad ediləndə başa çatacaq. O vaxtacan sinən Vətənə sipərdi. Müharibə səbəbindən torpaqlarımıza düşən səngərlərin səngəri sənsən. Bu amalla xidmət edirsən. "Səngərləri sərhədlərə köçürəcəyik!", - deyirsən. "Səngər müvəqqəti dayanacaqdı Böyük Qələbənin yolları üstə", - deyirsən, "Səni yaşatmaq üçün qoruyuruq, Ana Torpaq", "Sənin üçün hər birimiz Mübarizik, Ana Vətən!", - deyirsən. Yeniyetmələr də, gənclər də sənin "Hamımız bir Günəşin zərrəsiyik. Bu Günəş Vətəndi!" - kəlmələrini dünyaduyumuna göyqurşağı bilir. Sənin döyüş əzmin, qələbə ruhun Vətən sevgisindən güc alır. Sənin - Azərbaycan əsgərinin qüdrəti həm də bu güclə bağlıdır. Tovuz döyüşlərinin iştirakçısı olmuş əsgər Elməddin Dadaşzadənin timsalında hamınıza müraciət edirik. Sən buna görə güclüsən, buna görə qorxmazsan. Buna görə iradəlisən, buna görə xidmət etdiyin ordu dünyanın ən güclü orduları sırasındadır.

Vətəni müqəddəs sevgilərlə qoruyan, dünyanın ən güclü ordularından biri olan Azərbaycan Ordusunun əsgəri, sənin düşüncələrində sərhəd bütövlüyüylə Vətən var - Azərbaycan var, səngərsiz torpaqlara görə döyüş əzmi var, qələbə ruhu var.

Tovuzda, adsız yüksəklikdə döyüş növbəsində olan əsgər qardaşın "Tərxis olunduqdan sonra nə edəcəksən?" sualına cavab olaraq demişdi: "Səmimiyimə inanın, ürəyimi bu dağlarda qoyub gedirəm. Əsgər olduğum mülki həyatda da unutmayacam. Elə biləcəm ki, naməlum müddətə məzuniyyətə buraxılmışam". Onun sözləri "Oğulluq borcu son nəfəsəcən ödənilməli olan mənəvi borcdu" fikrinin eynidi. Bu kəlmələri hər biriniz demisiniz, deyirsiniz.

Bilirsiniz ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tövsiyələriylə Azərbaycan Ordusunda irimiqyaslı islahatlar aparıldı. İndi ordumuz Cənubi Qafqazda ən güclü ordudu. Azərbaycan Ordusu ərazi bütövlüyümüzü qorumağa da, torpaqlarımızı işğaldan azad etməyə də qadirdir. Siz belə bir ordunun əsgərisiniz. Müharibəni siz başa çatdıracaqsınız.

Torpağa siz də Ana Torpaq deyirsiniz, onu qoruyursunuz. Bilirsiniz ki, torpağı qorudunsa sənindi, qorumadınsa yadın. Onu da bilirsiniz ki, barmağına tikan batan ufuldayır. Bəs torpaq? Ermənilərin atdığı mərmilərin, güllələrin yaraladığı torpaq neyləsin? Torpağın ağrı-acıları eşidilmir, duyulur; torpaqlarımızın can giziltisi işğaldan azad ediləndə kəsəcək, yaraları onda qaysaqlayacaq...

Sən də bilirsən ki, şəhidlik ölümün məğlubiyyətidi. Bu ruhu döyüşə-döyüşə yaşadanların döyüş yolunu sən davam etdirirsən. Sənin döyüş əzmin Vətənin döyüş əzmidir, qələbə ruhun Vətənin qələbə ruhudur.

Düşmən atəşkəsi pozanda da, təxribat törədəndə də sənin əsgər qardaşların onları həmişə qətiyyətlə susdurub. Düşmən iyulun 12-də daha əhatəli siyasi niyyətlərə görə Tovuz rayonu istiqamətindən Azərbaycanın dövlət sərhədlərinə hücum etdi. Sənin əsgər qardaşların bu qəfil hücumun qarşısını qətiyyətlə aldı, düşmənin neçə-neçə dayaq məntəqəsi dağıdıldı, neçə-neçə döyüş texnikası, onlarla canlı qüvvəsi məhv edildi. Bu, qələbənin başlanğıcı oldu. İctimaiyyət bu qələbəni Aprel döyüşlərinin davamı, Ali Baş Komandanın döyüş əmriylə qazanılacaq Böyük Qələbənin başlanğıcı bildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev general-mayor Polad Həşimovun və polkovnik İlqar Mirzəyevin dəfnində həm bu qəhrəmanlara, həm də Tovuz döyüşlərinin digər qəhrəmanlarına xitabən deyib: "Biz fəxr edirik ki, Azərbaycan xalqı, Azərbaycan torpağı belə övladlar yetişdirib". Bu fikirlər şəhidliyə, şəhidlərə böyük ehtiramdır və bu ehtiram da sizin mənəvi-psixoloji hazırlığınızı yüksəldir.

Sizin hərbi xidmət amalınız torpaqlarımızın işğaldan azad edilməsidir. Hər biriniz qələbənin əsgəri olmaq, Ali Baş Komandanın döyüş əmrini qələbəylə tamamlamaq istəyirsiniz!

İctimaiyyət sənin bundan sonra da dövlətə sədaqətlə xidmət edəcəyinə inanır. İnanır ki, sən Ali Baş Komandanın döyüş əmriylə 2016-cı ilin Aprel döyüşlərini, 2020-ci ilin iyul döyüşlərini qəti qələbəylə tamamlayacaqsan. Bu qələbəyə Böyük Qələbə deyəcəyik. Müharibənin sonuncu gülləsi erməniliyin son nəfəsi olacaq. Tarix işğalçılığın son nəfəsinə qəhqəhə çəkəcək. Tarixin ironiyası işğala meyillilərin niyyətinin tövbəsinə dönəcək. Tarix görəcək ki, Azərbaycan əsgəri dünyanın "qara daşlarını göyərtməyə qadirdir".

Sən qüdrətli Azərbaycan Ordusunun əsgərisən!

Sən tarixin yol azmış axarını öz axarına düzənləyəcəksən! Bu, Vətənin istəyidi! Vətənin tələbidi!

Siz Azərbaycanın dövlət bayrağını işğaldan azad edəcəyiniz torpaqlarımızda da dalğalandıracaqsınız. Vətənə sevginiz, Hərbi anda, dövlətə sədaqətiniz döyüş bayrağındı, Azərbaycan əsgəri!

Sən qalib gələcəksən!

**"Azərbaycan Ordusu"**

# Azərbaycan-Türkiyə birgə genişmiqyaslı taktiki təlimləri

*Ölkəmizdə keçirilən Azərbaycan-Türkiyə birgə genişmiqyaslı döyüş atışlı taktiki təlimlərinin növbəti mərhələsi icra olunub.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimlərin bu mərhələsində bölmələr silah və zirehli texnikanın tətbiqi ilə müxtəlif relyefli ərazilərdən keçməklə əks-hücum əməliyyatının təşkili və keçirilməsi, şərti düşmənin canlı qüvvəsi və döyüş texnikasına qabaqlayıcı zərbələrin endirilməsi, həmçinin strateji cəhətdən əlverişli rayon və hədlərin azad edilməsi üzrə təlim-döyüş tapşırıqlarını yerinə yetiriblər.

Bölmələr döyüş düzülüşünün digər elementləri ilə qarşılıqlı əlaqədə yüksək peşəkarlıq nümayiş etdirərək qarşıya qoyulmuş tapşırıqları uğurla icra ediblər.

* * *

Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin "Tur-Az Qartalı-2020" birgə taktiki-uçuş təlimləri davam edir.

Məşqlərin praktiki hissəsində bazalanma aerodromlarından uçuş edən helikopterlər müxtəlif epizodlar üzrə tapşırıqları icra edirlər.

Taktiki-uçuş məşqləri zamanı qarşıya qoyulan tapşırıqlar helikopter ekipajları tərəfindən müvəffəqiyyətlə yerinə yetirilir.

* * *

Hərbi əməkdaşlıq haqqında sazişə əsasən ölkəmizdə keçirilən Azərbaycan-Türkiyə birgə genişmiqyaslı döyüş atışlı taktiki təlimlərinin növbəti mərhələsi keçirilib.

Təlimlərin ssenarisinə uyğun olaraq bölmələr zirehli texnika və helikopterlərin istifadəsi ilə müxtəlif döyüş elementlərini, eləcə də digər təlim-döyüş tapşırıqlarını icra ediblər.



* * *

Naxçıvanda keçirilən Azərbaycan-Türkiyə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimləri davam edir.

Təlimin ssenarisinə əsasən birləşmə və tabor qərargahları ilə hərbi qərar qəbuletmə prosesinə uyğun tapşırığın aydınlaşdırılması, vəziyyətin qiymətləndirilməsi, ərazidə tapşırıqların dəqiqləşdirilməsi, birgə danışıq cədvəllərinin işlənilib hazırlanması kimi tədbirlər həyata keçirilir.

Türkiyə Silahlı Qüvvələrinin bölmələri ilə birgə fəaliyyət zamanı idarəetmənin və rabitə əlaqəsinin təşkili üzrə fəaliyyətlər yerinə yetirilir.

Bölmələrin qarşılıqlı fəaliyyətinin koordinasiyasına nail olmaq üçün qərargahların müştərək döyüş əməliyyatları planlarının hazırlanması ilə bağlı verilmiş qərar və tapşırıqlar Naxçıvan Qarnizonunun Simulyasiya Mərkəzində kompüterlər üzərində icra olunur.

# İdeoloji işin təşkilinə cavabdeh zabitlərin iştirakı ilə işçi qrupun görüşü keçirilib

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin son çıxışlarında ideoloji işin gücləndirilməsi ilə bağlı qarşıya qoyduğu vəzifələrin icrasının təmin edilməsi ilə bağlı Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev və Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyevin görüşü keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə müvafiq sahə üzrə görülən işlərdən danışılıb, həyata keçirilən tədbirlər təhlil olunub və ideoloji işlə bağlı planlar nəzərdən keçirilib.

Sonra Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin təhlil və proqnozlaşdırma sektorunun müdiri Tahir Kərimovun iştirakı ilə Azərbaycan Ordusunda ideoloji işin təşkili və həyata keçirilməsinə cavabdeh zabitlər də cəlb edilməklə müvafiq mövzu ilə bağlı işçi qrupun görüşü təşkil olunub.

Tədbirdə Azərbaycan Ordusunda ideoloji işin təşkili və həyata keçirilməsi ilə bağlı müvafiq sahəyə cavabdeh zabitlərin ictimai-siyasi hazırlıq, mənəvi-psixoloji təminat, ictimaiyyətlə əlaqələr, eləcə də digər istiqamətlərə aid hesabat xarakterli məruzələri dinlənilib, prezentasiyalar təqdim olunub, görülən işlər və bu sahədə aparılan işin səmərəliliyinin artırılması üçün nəzərdə tutulan addımlar barədə məlumat verilib.

Toplantıda çıxış edən Tahir Kərimov Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunda həyata keçirilən islahatlar nəticəsində hərbi hissələrin döyüş qabiliyyətinin artdığını, şəxsi heyətin döyüş əzminin, vətənpərvərlik ruhunun və mənəvi-psixoloji hazırlığının daima yüksəldiyini bildirib.

İdeoloji işin əhəmiyyətindən danışan T.Kərimov xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan Ordusunun formalaşmasında tarixi fəaliyyətinin, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuzda həyata keçirilən islahatların, hərbi xidmətin nüfuzunun yüksəldilməsi istiqamətində görülən işlərin təbliğinin, gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsinin, gənclərin milli dəyərlərə, tarixi ənənələrə bağlılıq ruhunda, Vətənə məhəbbət və torpaqlarımızın işğaldan azad etməyə daim hazır olmaq hissləri ilə böyüməsinin ideoloji işin əsas istiqamətlərindən olduğunu bir daha diqqətə çatdırıb.

Tədbirdə Ali Baş Komandan cənab İlham Əliyevin son çıxışlarında ideoloji işin gücləndirilməsi ilə bağlı qarşıya qoyulan vəzifələrin icrasını təmin etmək məqsədilə hərbi hissələrdə həyata keçiriləcək ideoloji işin istiqamətləri və perspektivləri barədə geniş fikir mübadiləsi aparılıb, yeni forma və metodlarla bağlı təkliflər müzakirə olunub.

Sonda kreativ ideyalardan, müasir texnologiyalardan, fleşmoblardan, sosial şəbəkələrin imkanlarından daha çevik istifadə etməklə ideoloji işlə bağlı qarşıya qoyulan tapşırıqların icrasına daha təsirli, daha keyfiyyətli nail olmanın yolları haqqında da müzakirələr aparılıb.

Müzakirələr zamanı Müdafiə Nazirliyində ideoloji işlə bağlı görülən işlər və həyata keçirilən tədbirlər müsbət qiymətləndirilib.

# Qoşunlarda yay tədris dövrü başlayıb

2020-ci il üçün döyüş hazırlığı planına əsasən Azərbaycan Ordusunun qoşun növləri, birlik, birləşmə və hərbi hissələrində yay tədris dövrü başlayıb. Bütün hərbi hissələrdə keçirilən tədbirlərdə tədris dövrü üçün əsas məqsədlər və vəzifələr, eləcə də onların icra qaydaları diqqətə çatdırılıb.



Ordumuzda tədris prosesi Ali Baş Komandanın tələblərinə, Müdafiə nazirinin əmr və sərəncamlarına müvafiq olaraq döyüş hazırlığı səviyyəsinin yüksəldilməsi məqsədilə quruda, dənizdə, havada real təhdid və risklərin nəzərə alınması ilə təşkil edilərək keçiriləcək.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, yay tədris dövrünün başlanması ilə əlaqədar hərbi hissələrdə sıra baxışları keçirilib, maddi-tədris bazasının vəziyyəti yoxlanılıb.

Tədris dövrünün ilk günü bütün hərbi hissələrdə yüksək effektivlik və keyfiyyəti ilə fərqlənən döyüş hazırlığı məşğələləri başlayıb.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Azərbaycan Ordusunda keçirilən andiçmə mərasimində valideynlərin iştirakı qadağandır

Avqustun 9-da Azərbaycan Ordusunun təlim hissə və bölmələrində gənc əsgərlərin andiçmə mərasimi keçiriləcək.

Nazirlər Kabineti yanında Operativ Qərargahın koronavirus infeksiyasına qarşı mübarizə ilə bağlı müvafiq qərarına əsasən Azərbaycan Ordusunun şəxsi heyətinin təhlükəsizliyini təmin etmək və hərbi qulluqçuların yoluxmasının qarşısını almaq məqsədilə valideynlərin, eləcə də ictimaiyyət və KİV nümayəndələrinin andiçmə mərasimlərində iştirakı qadağandır.

Vətəndaşlarımızdan bu qərara anlayışla yanaşmağı və andiçmə mərasimlərinə gəlməməyi xahiş edirik.

## Ermənistana məxsus növbəti taktiki PUA məhv edilib

Avqustun 6-da günorta saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri taktiki pilotsuz uçuş aparatı (PUA) vasitəsilə Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətindəki mövqelərimiz üzərində kəşfiyyat uçuşları keçirməyə cəhd göstərib.

Hava Hücumundan Müdafiə bölmələri tərəfindən düşmənin növbəti PUA-sı dərhal aşkar olunaraq məhv edilib.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***7 avqust 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 34 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi, Əsrik Cırdaxan, Ağbulaq kəndlərində, Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

*Ön xətdən reportaj*

# "Ali Baş Komandanın döyüş əmrini hər birimiz səbirsizliklə gözləyirik"

*Səhərin erkən saatlarıdı. Günəşin zərrin şüaları insana xoş əhval-ruhiyyə aşılasa da, günün isti keçəcəyindən xəbər verir. Nəhayətsiz səmanı öz nuruna qərq edən günəşin şüaları altında "N" hərbi hissəsinə doğru irəliləyirik. Müəyyən məsafə qət edərək nəzərdə tutduğumuz məntəqəyə yaxınlaşdıqca havanın hərarəti daha da artır. "N" hərbi hissəsinə çatdıqdan və zabit Ramazan Orucovla tanış olduqdan sonra onunla birlikdə ön xəttə yola düşürük.*



Yaşayış məntəqələrini ötüb keçdikdən sonra ətrafda əsrarəngiz sakitlik hökm sürür. Asfalt yol artıq torpaq yolla əvəzlənir. Uzun yola maraqlı söhbəti ilə körpü salan zabit xidmətinin böyük hissəsini ön xəttə həsr etmiş təcrübəli hərbçilərimizdəndir. Uzun müddət ordu sıralarında xidmət edən zabit əvvəlki xidmət dövrünü belə xatırlayır: "Şübhəsiz ki, ötən əsrin sonlarında yenidən müstəqillik əldə etmiş gənc ölkənin qarşısında duran prioritet məsələ ordusunun komplektləşdirilməsi məsələsi idi. Ulu öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra hərb sahəsində aparılan islahatlar qısa müddət ərzində öz müsbət nəticələrini göstərdi. Müstəqilliyimizin ilk illərində ordumuzun güc göstəricisi ilə indiki statistika arasında müqayisəyəgəlməz dərəcədə fərq var. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan hərbi islahatlar, bu gün Prezident, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Bu gün ordumuz kifayət qədər hərbi gücə malikdir. Ordunun gücünü onun əsgərinin döyüş bacarığı, mənəvi-psixoloji vəziyyəti təsdiqləyir. Arsenalında ən müasir silahı olan ordunun əsgəri əgər vətənpərvər deyilsə, qələbə qazanması qeyri-mümkündür. Azərbaycan Ordusu istər arsenalında olan müasir silahlara, istərsə də əsgərinin döyüş ruhuna görə düşmənə qalib gəlmək iqtidarındadır. Sussa da, bütün dünya bilir ki, Azərbaycan əsgərinin mübarizəsi haqq mübarizəsidir. Elə hesab etməsinlər ki, Azərbaycan xalqının səbri tükənməzdir. Bu gedişlə beynəlxalq qurumların bərqərar etmədiyi ədaləti Azərbaycan əsgəri edəcək, tarixi ata-baba ocaqlarımızı düşməndən təmizləyəcək.



Xeyirin şər üzərində qələbəsinin bütün dünya şahidi olacaq. Bu gün birmənalıdır ki, Azərbaycan Ordusu düşmən ordusunu istənilən göstəricidə qabaqlayır. Düşmən ordusu öz havadarlarına arxalana bilər, bizim ordumuz yalnız öz gücünə güvənir. Ordumuz artıq ötən əsrin sonlarındakı ordu deyil, gündən-günə daha da güclənir. Qısa müddət ərzində dünyanın aparıcı orduları sırasına adını yazmağı bacaran Azərbaycan Ordusunun gücünü bütün dünya bilir. Günümüzdə ölkəmiz artıq öz milli silahlarını istehsal edir. İstehsal etməklə yanaşı, milli hərbi məhsullarımız xarici ölkələrə də ixrac edilir. Bundan savayı, dünyanın aparıcı ordularına malik ölkələr ilə müxtəlif layihələrə imza atılır." Zabit xidmət etdiyi hərbi hissənin bir müddət əvvəl istifadəyə verildiyini vurğulayır və qeyd edir ki, hərbi hissənin açılışında Müdafiə naziri general-polkovnik Zakir Həsənov da iştirak edib. Yaradılan şəraitdən şəxsi heyətin döyüş və psixoloji hazırlığından danışan zabit bildirir ki, ordumuzun bugünkü gücü rəhbərliyin yüksək diqqətinin bəhrəsidir. "Ölkəmizin əksər bölgələrində yerləşən hərbi hissələrində təmir və yenidənqurma işləri görülür və görüləcək. Ordumuza rəhbərliyin və xalqımızın böyük inamı var, ordu sıralarında olan hər bir kəs də öz növbəsində bundan ruhlanır, ona göstərilən etimadı layiqincə doğruldur. Ordu rəhbərliyinin tez-tez cəbhə bölgəsinə səfər etməsi, yurdumuzun keşiyində dayanan hərbi qulluqçularla görüşməsi, onların xidmətini layiqincə qiymətləndirməsi, qayğı və problemləri ilə maraqlanması hər kəsin döyüş ovqatını daha da artırır".

Nəzərdə tutduğumuz ünvana çatdıqdan sonra ilk tanışlığımız baş leytenant Bəhruz Qocayev olur. Özü haqqında qısa məlumat verən gənc zabit bildirir ki, Vətəni qorumaq, xalqa sədaqətlə xidmət etmək hər bir vətənpərvər şəxsin müqəddəs amalıdır. "Düşmənlə təmas xəttində əyninə hərbi mundir, ordu sıralarında Vətən müdafiəçisi adını daşımaqdan qürur duyuram. Təbiliyimdəki şəxsi heyətin də ürəyi Vətən sevgisi ilə döyünür. Hər birimizin qəlbindəki ən böyük arzu əzəli və əbədi torpaqlarımız olan Dağlıq Qarabağı və ətraf yeddi rayonu işğaldan azad etməkdir. İstənilən an Ali Baş Komandanımızın döyüş əmrini yerinə yetirməyə hazırıq. Ömür Vətən üçündür, onun üçün ölünür və öldürülür. Bölməmizin hərbi qulluqçuları düşməni daim nəzarətdə saxlayır, onlar tərəfindən törədilən təxribatları layiqincə cavablandırırlar".

Bölmənin dayaq məntəqə-



sində gördüklərimiz zabitin dediklərinin sübutudur. Şəxsi heyətin gözündəki qorxmazlıq insanı qürurlandırır, qələbəyə kökləyir. Şübhəsiz, xalqımız onlara əbəs yerə güvənmir, çünki məhz onlardır bugünkü təhlükəsizliyimizin və gələcəyimizin təminatçıları. Əsgər Samrat Əlizadəylə kəlmələşirəm. Vətən müdafiəçimiz komandirlər tərəfindən verilən təlimata əsasən düşmənin istənilən təxribatına hazır olduqlarını qeyd edir. "Tarix boyu Vətənimiz qəsbkarların təcavüzünə məruz qalıb. Ermənilərin tarixi torpaqlarımızı işğal edərkən xalqımızın başına gətirdiyi insanlıqdan uzaq hərəkətlərini izləyərkən düşmənə qarşı qəzəb hissim daha da alovlandı. Böyüyüb boya-başa çatdığımız Vətənin bu gün müdafiəçiləriyik. Uzun müddətdir ordu sıralarındayam, xidmətimi səngərdə təşkil etdiyim üçün qürurluyam. Bu gün Vətənə övladlıq borcumu ödəyirəm. Əsgər yoldaşlarımla hər birimiz bu şərəfli vəzifənin məsuliyyətini və verdiyi qüruru dərindən hiss edirik. Ali Baş Komandanımızın döyüş əmrini hər birimiz səbirsizliklə gözləyirik".

Qarşı tərəfi müşayiət edən Ozal İsmayılova yaxınlaşırıq. Zabit Ramazan Orucovun "Səngərdə xidmət edərkən hansı hissləri keçirirsən?" sualına əsgər çox maraqlı cavab verir. "Hər gün səngərdə döyüş növbəsinə çıxarkən komandirlərimizin bu səngərlərin Vətənə neçə-neçə igid oğullar qazandırması ilə bağlı söhbətlərini xatırlayıram. Mübarizlər, Çingizlər və minlərlə igidlərin ünvanı olan səngərlər Vətəni qorumağın vacibliyini insana daha yaxşı dərk etdirir. Yerinə yetirdiyimiz vəzifə ümdə vəzifə olduğundan iqlimindən, relyefindən asılı olmadan barmağımız silahın tətiyində Vətəni müdafiə edirik. Hər birimiz ata-babalarımızdan miras qalan, hazırda işğal edilən tarixi ərazilərimizin düşmən işğalından azad olunacağı döyüşlərin iştirakçısı olmaq arzusundayıq".

Döyüş yoldaşının sözünə qüvvət olaraq əsgərlər Nəriman Məmmədov və Sabir Həsənov bildirirlər ki, Vətənə sevgi ilə xidmət edirlər. - Çoxdan bu günün həsrətindəyədim. Yaşımın az olmasına baxmayaraq, Vətənin haradan başladığını daha dərindən anlayıram. Düşmən mövqeyini müşahidə edərkən tək bir amal haqqında düşünürəm - Qarabağımızı azad görmək, torpaqlarımızın müharibə yolu ilə azad olunacağı döyüşlərin iştirakçısı olmaq.

**Baş leytenant Fuad CƏFƏROV, "Azərbaycan Ordusu"**

# Şəxsi heyətlə ideoloji iş daha da yüksək səviyyədə aparılacaq

**Azərbaycan Prezidenti İlham ƏLİYEV:**

*Bütün hərbi hissələrdə ideoloji vəziyyətə xüsusi əhəmiyyət verilməlidir. Ölkəmizin tarixi - həm qədim tarixi, həm də müasir tarixi ilə əlaqədar hər bir əsgərdə, zabitdə dolğun təəssürat olmalıdır.*

*Azərbaycanda ordu quruculuğu həmişə dövlət üçün prioritet olub. Məhz bunun nəticəsidir ki, ordu quruculuğunda həyata keçirilən irimiqyaslı islahatlar böyük uğurlar gətirir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ön xətdə yeni hərbi hissələrin açılışında, eləcə də bu və ya digər tədbirlərdə də çıxışlarının mahiyyəti və məzmunu hərbi hissələrdə ideoloji işin səmərəliliyinin daha da artırılmasını tələb edir. Ölkə başçısının tövsiyələrinə müvafiq olaraq şəxsi heyətlə aparılan ideoloji işin tərkib hissələrindən biri də Azərbaycanın istər qədim, istər orta əsrlər, istərsə də müasir tarixinin öyrənilməsi istiqamətində yeniləşmələr aparılmaqdadır.*



Müstəqilliyimizin ilk illəri ölkəmiz üçün çox ağır keçdi, tariximizin səhifələrinə faciəvi illər kimi daxil oldu. Daxildə baş verən çəkişmələr, hakimiyyət uğrunda gedən mübarizə vəziyyəti daha da ağırlaşdırırdı. İqtisadi tənəzzül, böhran hökm sürürdü. Belə vəziyyətdən istifadə edən düşmən öz işğalçılıq siyasətini yürüdürdü. Bunlar müstəqilliyini yenicə bərpa etmiş dövlətçiliyimizə böyük təhlükə idi. Ancaq xalqımızın uzaqgörənliyi və müdrikliyi buna imkan vermədi. Xalq təkidlə ümummilli lider Heydər Əliyevi ölkə rəhbərliyinə dəvət etdi. Ulu Öndər hakimiyyətə gələndən sonra uğurlu islahatlar sayəsində vəziyyət dövlətçilik baxımından sabitləşdi. Həmin illərdə qəbul olunan bir çox vacib qərarların sırasında nizami ordunun yaradılması da xüsusi yer tuturdu. Qəbul edilən qərarlar respublikamızın etibarlı müdafiəsinə, savadlı hərbi kadrların formalaşmasına zəmin yaratdı. Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı, Ali Baş Komandan İlham Əliyevin də siyasi kursunun əsas istiqaməti ordu quruculuğu prosesini sürətlə təkmilləşdirmək, Silahlı Qüvvələri modernləşdirmək oldu. Bu gün müasir standartlara cavab verən hərbi hissələrin inşa edilməsi, yeni silah-sursat və texnikaların alınması bunun nəticəsidir. Ordu rəhbərliyinin qarşısında duran əsas vəzifələrdən biri şəxsi heyətin döyüş əzminin, qələbə ruhunun yüksəldilməsi, döyüşə daim hazır olmasıdır. Bu ordu quruculuğunun yüksək səviyyəsinin tələbidir. Son illərdə ordumuzda həyata keçirilən irimiqyaslı islahatlar, genişmiqyaslı təlimlər onun gücünü artırıb, dünya miqyasında güclü ordular sırasına çıxarıb. Orduda şəxsi heyətin döyüş əzminin, qələbə ruhunun yüksəlməsi də məhz bunun məntiqi davamıdır, yəni, Azərbaycan əsgərinin yüksək döyüş hazırlığı mənəvi-psixoloji hazırlıqla tamamlanır. Şəxsi heyət arasında ideoloji işin səmərəli aparılması bu bağlılığı daha da mətinləşdirir. Bunun üçün düşmənlə təmas xəttində xidmət edən hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə yanaşı, vətənpərvərlik ruhunun artırılması istiqamətində də tədbirlərin keçirilməsinə üstünlük verilir. İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin zabitləri vaxtaşırı ön xətdə əsgərlərlə söhbətlər aparır, ictimai-siyasi hazırlıq dərslərinin daha da effektli və mahiyyətli təşkili üçün öz töşfələrini verirlər.



Şəxsi heyətin mənəvi-psixoloji hazırlığının və döyüş keyfiyyətlərinin formalaşmasında ictimai-siyasi hazırlıq dərslərinin rolu böyükdür. Məşğələ rəhbərləri hərbi qulluqçulara döyüş növbəsində, qarovul və daxili xidmət zamanı möhkəm intizamın və yüksək sayıqlığın əhəmiyyətini daha dərindən dərk etməkdə və yerinə yetirməkdə köməklik edirlər. Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində şəxsi heyətin ictimai-siyasi hazırlıq dərsində iştirak edərkən bunun şahidi olduq. Yüksək tərtibatla hazırlanmış və müasir avadanlıqlarla təmin olunmuş sinif otağında keçirilən məşğələdə Azərbaycan Ordusunun inkişaf tarixinin mərhələlərini, ulu öndər Heydər Əliyevin və Ali Baş Komandan İlham Əliyevin əsgərlərlə görüşlərini, Ermənistanın Azərbaycana qarşı elan etmədən başladığı müharibəni, Hərbi andı və dövlətimizin atributlarını özündə əks etdirən maraqlı eksponatlar əsgərlərin mənəvi-psixoloji hazırlığının, döyüş ruhunun artırılmasında, onlara vətənpərvərlik hissinin aşılanmasında müstəsna rol oynayır.

Leytenant Taleh Quliyev mövzunu ətraflı izah edir, əsgərlərin suallarını cavablandırır. Zabit ötən mövzular haqqında da sual verməyi unutmur. Cavablardan məlum olur ki, qrup rəhbəri mövzunu hərtərəfli çatdırdığı kimi, əsgərlər də dərsə ciddi və tam məsuliyyətlə yanaşırlar. Məşğələ başa çatdıqdan sonra zabitlə həmsöhbət olmaq imkanı qazandıq.

Öyrəndik ki, tələbəykən o da ordumuzla qürurlanıb, o da 2016-cı ilin Aprel döyüşlərinin qürurunu özünü əsgərlərin sırasında hiss etməklə yaşayıb. Azərbaycan Texniki Universitetinin məzunudur. "Hərbçi olmaq, Vətənin müdafiəsində dayanmaq ən müqəddəs vəzifələrdən biridir. Mən də bu peşə sahiblərinin sıralarında olmağımla fəxr edirəm. Ali təhsilimi başa vurduqdan sonra hərbçi olmağa qərar verdim. Sənədlərimi Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinə təqdim etdim. İxtisas hazırlığı kursunu müvəffəqiyyətlə başa vurduqdan sonra cəbhə bölgəsində yerləşən hərbi hissələrdən birində xidmətə başladım. Təhsil aldığım müddətdə zabitlərin öyrətdiklərini dərindən mənimsəməyə, hərbin sirlərinə mükəmməl yiyələnməyə çalışırdım. İndi əldə etdiyim bilik və bacarıqları şəxsi heyətə aşılayıram. Biz çox vacib və məsuliyyətli vəzifənin daşıyıcılarıyıq. Qarşımızda duran əsas vəzifə əsgərlərimizin savadlı, təcrübəli olmasına, layiqli vətəndaş kimi formalaşmasına vasitəçi olmaqdır. Bu vəzifənin öhdəsindən gəlmək üçün əlimizdən gələni əsirgəmirik. Çalışıram ki, dərslərimiz həm səmərəli, həm də maraqlı olsun. Hər birimiz yaxşı bilirik ki, döyüşlərdə yalnız yüksək hazırlıqlı əsgər düşməni məhv etməyə və xalqımıza qələbə sevincini yaşatmağa qadirdir", - deyə zabit bildirdi.

Şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin və qoşun xidmətinin yaxşılaşdırılması istiqamətində aparılan tədbirlərdən danışan zabit qeyd etdi ki, təsdiq edilmiş plana əsasən günün, həftənin və ayın yekununda xidmətin təhlili aparılır. "Aşkar edilmiş nöqsanlar göstərilir, aradan qaldırılması üçün tədbirlər müəyyən edilir və xidmətdə fərqlənənlər həvəsləndirilir. Bu haqda informasiya bölmənin aylıq divar qəzetində və döyüş vərəqələrində işıqlandırılır. Bu da əsgərlərimizin mənəvi-psixoloji vəziyyətinə müsbət təsir göstərir."



Məşğələdə komandirini maraqla dinləyən əsgər Əli Abdullazadə hərbi xidmət zamanı əldə etdikləri bilik və bacarıqlardan söz açdı. "Günün nizam qaydasına uyğun olaraq keçirilən hər məşğələdə yeni məlumatlar əldə edirik. Savadlı komandirlərimizin sayəsində bütün dərslərimiz maraqlı keçir. İctimai-siyasi hazırlıq məşğələlərinə xüsusilə maraq göstərirəm. Leytenant Taleh Quliyev bizə ölkəmizin müstəqilliyi, xarici siyasəti və hərb tarixi haqqında əlavə bilgilər verir. Bunlar hərbi biliklərimizi və dünyagörüşümüzü artırır."

Əli dayısını özünə örnək bilir, "Vətənimiz tarix boyu mənfur düşmənlərin işğalçılıq siyasəti ilə üzləşib. Ancaq mərd, cəsur, igid oğul və qızlarımızın qəhrəmanlıqları sayəsində azadlığımızı və müstəqilliyimizi qoruyub saxlaya bilmişik. Onlar bizim müstəqil dövlətdə yaşamağımız, ölkəmizin səmasında üçrəngli bayrağımızın dalğalanması naminə canlarını fəda etdilər. İndi bizim üzərimizə bu müstəqilliyi, bu azadlığı qoruyub saxlamaq və yeni nəsillərə ötürmək missiyası düşür."

Əsgər Mais Həsənov qeyd etdi ki, Vətənə xidmət etmək, torpaqlarımızın keşiyində durmaq hər birimizin müqəddəs borcudur. "Biz xalqımızın tarixinə orta məktəbdə oxuyandan bələdik. Bu bələdlik hərbi xidmətdə daha da dərinləşir. Burada xalqımızın tarixi ilə bağlı daha gərəkli faktları da öyrənirik. Onu da öyrənirik ki, bugünkü tariximiz min illərin əvvəlləriylə səsləşir. Bunlar həm öyrədənin, həm də öyrənənin vətənpərvərliyidir. Düşünmürəm ki, Vətənini sevməyən insan olsun. Hər birimiz Vətənimiz Azərbaycanla nəfəs alırıq. Üzərində böyüdüyümüz torpağın kədəri, sevinci hər birimizindir. Vətənini sevmək onun tarixini bilməkdən, şəhidlərini yaxından tanımaqdan keçir. Bu yerlər ata-babalarımızın doğulduğu, uğrunda göz qırpmadan canlarından keçən qəhrəman qardaş və bacılarımızın uyuduğu məkandır. Tutduğumuz mövqedən asılı olmayaraq bizləri yalnız bir amal birləşdirir: doğma Azərbaycanımıza məhəbbət, Qarabağ yangısı, işğalda olan torpaqlarımızın ağrı-acısı. Xalqımızın illərdi çəkdiyi həsrətə son qoyacağıq. Bunun üçün komandirlərimizin öyrətdiklərini dərindən mənimsəyir, döyüş əmri veriləcəyi günü səbirsizliklə gözləyirik".

Əsgər Əli Abbasov dedi ki, komandirlərin əmr və tapşırıqlarını böyük məsuliyyətlə yerinə yetiririk. "Komandirlərimizin dediyi kimi, yaxşı əsgər həm xidmət edir, həm də xalqının tarixini, mədəniyyətini, ədəbiyyatını yaxşı öyrənir".

Əsgərlər Asəf Əliyev, Elmir Quliyev və digərləri də bildirdilər ki, üzərlərinə düşən vəzifənin məsuliyyətini yaxşı dərk edirlər. Fəxr edirlər ki, güclü ordunun sıralarında xidmət edir, torpaqlarımızın müdafiəsində inamla dayanırlar. Onların sözlərindən hiss olunurdu ki, qəlblərində Vətənə məhəbbətləri, düşmənə nifrətləri böyükdür.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

Tibb xidməti

# Sağlamlıq həmişə diqqətdə saxlanılır

*Döyüş hazırlığı kimi, tibb xidməti də həmişə diqqət mərkəzində olur. Sağlamlıq döyüş hazırlığına bilavasitə təsir göstərdiyindən hərbi hissələrdə tibb məntəqələri müasir standartlara cavab verən avadanlıqlarla təchiz olunub. Həmçinin ordu sıralarında xidmət edən həkimlərin təkmilləşdirilməsinə, ixtisas biliklərinin artırılmasına da xüsusi diqqət yetirilir. Bölmələrdə şəxsi heyətin gigiyena qaydalarına ciddi əməl etməsində hərbi həkimlərin, feldşerlərin, sanitar-təlimatçıların rolu böyükdür.*





"N" hərbi hissəsinin tibb məntəqəsində gizir Elçin Ələsgərov əsgəri müayinə edirdi. Müayinədən sonra E.Ələsgərovla söhbətləşdik. Vətənin müdafiəçilərinin sağlamlığının hər birimiz üçün önəmli olduğunu deyən gizir bildirdi ki, qarşıda duran əsas vəzifələrdən biri şəxsi heyəti qorumaqdır. "Hər hansı xəstəliyin yayılmaması üçün mütəmadi olaraq profilaktik işlər görülür. Şəxsi heyət hər gün müayinə edilir, narahatçılıq aşkar ediləndə əsgər tibb məntəqəsinə göndərilir. Ehtiyac olarsa, xəstə hərbi hospitala təxliyə edilir. Mövsüm dəyişikliyi və koronavirus pandemiyası məsuliyyətimizi daha da artırıb. Şəxsi heyətin gigiyenasını, geyimini, qidalanmasını ciddi diqqət mərkəzində saxlayır, əsgər yataqxanalarını, yeməkxanasını, xidməti otaqları və ərazini müntəzəm dezinfeksiya edirik. Üzərimizə düşən vəzifənin öhdəsindən layiqincə gəlməyə çalışırıq".

Məntəqəyə müraciət edən əsgər Kənan Osmanlı dedi ki, həkimlər müayinə və müalicə üçün müraciət edənlərə həmişə diqqət və qayğı ilə yanaşırlar. "Sevinirəm ki, düşmənlə təmas xəttində yerləşən bölmələrdən birində xidmət edirəm. Xidmətim müddətində tibb məntəqəsinə ilk dəfədir müraciət edirəm. Əsgər yoldaşlarımdan burada yaradılan şəraitdən, həkimlərimizin peşəkarlığından çox eşitmişdim. Savadlı və bacarıqlı həkimlərimizin sayəsində tezliklə sağalıb xidmətimi davam etdirəcəm".

Bu tibb məntəqəsində də əsgərlərimizin sağlamlığının qorunması üçün həkimlərimiz bütün imkanlardan istifadə edirlər.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

# Xalqımız ordusu ilə fəxr edir

*Tarix yazmaq, tarixin səhifələrini qaralamadan, ləkələmədən gələcək nəslə ötürmək əsl hünər işidi. Biz səngərlərdə mərd və qorxmaz dayanmağı tarixdən, daha doğrusu, qəhrəman oğullarımızdan, igid sərkərdələrimizdən, şəhidlərimizdən öyrəndik. 20 Yanvar hadisələri zamanı insanlar meydanlara toplaşaraq Vətən torpağı üçün özlərini tankların altına atdılar, o zaman düşünmədilər, qorxmadılar.*

Biz belə insanlardan öyrəndik Vətənimizi qoruyaraq sevməyi. Ən böyük sevinc tabutuna sarılı üçrəngli bayrağın sənlə yol yoldaşı olmasıdı. Hər bir haqlı savaşın əsgərləri yaşamağa layiqdirlər. Addımladığımız yolların, qoruduğumuz torpaqların, ata-babalarımızın müqəddəs yurd yerlərinin hər qarışı Vətəndir. Ən böyük amalımız Qarabağımızı mənfurlardan xilas etməkdir. Qarşıya qoyulan heç bir məqsəd cavabsız qalmır.

Bu gün tarixi torpaqlarımızı işğaldan azad etmək missiyası Azərbaycan əsgərinin üzərinə düşür. Külək, ayaz, soyuq, yağış, qızmar günəş bu missiyanın həyata keçirilməsinə mane ola bilməz.

Əsgər üçün çoxlu sayda müqəddəs amil var - Vətən, bayraq, şərəf, silah, səngər... Əsgər bayrağını və şərəfini uca tutar, Vətənini, silahını və səngərini qoruyar. Səngər qanlı-qadalı savaş meydanı olsa da, ona sığınan əsgəri doğma ana kimi bağrına basar, soyuqdan, şaxtadan qoruyar, ölüm və təhlükədən hifz edər.

Azərbaycan əsgəri Vətən üçün etdiyi şücaətlərlə daim düşmənin sinəsinə dağ çəkdi, torpağına göz dikənlərin gözlərini ovdu. Bu savaşın sərhədləri faktiki olaraq cəbhə xətti ilə məhdudlaşır. Görünür, erməni əsgəri bu qanunu dərk etməkdə hələ də çətinlik çəkir. Müharibənin qaydalarını pozmaq hünər deyil, ancaq bu qanunları pozmaq bəşəri cinayətdir.

2016-cı ilin Aprel döyüşləri müharibənin qanunlarını düşmənə bir daha xatırlatdı. Şəhidlərimiz Vətən üçün ən əsas hüquqlarından - yaşamaq hüquqlarından keçdilər. Bu gün şəhid qanı tökülən torpaqlarımızda Azərbaycan bayrağı dalğalanır. Növbəti yazılacaq qəhrəmanlıq dastanı Aprel və Günnüt zəfərlərinin, Tovuz döyüşlərinin davamı olacaq. Növbəti dalğalanan zəfər bayrağı Şuşada, Laçında, Kəlbəcərdə sancılacaq. Bu dastanın sonunda zəfər bizi gözləyir. Azərbaycan öz ordusu, əsgəri ilə hər zaman fəxr edir. Azərbaycan xalqının həsrətinə Azərbaycan əsgəri son qoyacaq.

Vətən üçün ölümün üstünə getmək, ölümünə təslim olmaq - bu sadəcə yadelliyə təslim olmamaq üçün atılan addım deyil, bu həm də ölümü ilə düşmənə dağ çəkmək, dərs verməkdir. Vətən üçün canından keçmək artıq əfsanəvi sevgidir. Vətəni bu qədər sevmək ruhla bağlı məsələdir. Vətəni ruhları ilə sevənlər, ruhunuz şad olsun. Göyləriniz mübarək, əziz Vətən mücahidləri!..

**Hüsniyyə İDRİSOVA,**
**BSU-nun IV kurs tələbəsi**

Gənc zabitlərimiz

# "Əsas silahımız Vətən sevgisidir"



Ön xətdə düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində xidmət edən leytenant Şahlar Rüstəmbəyli Yevlax rayonunda doğulub. O, Naxçıvan Dövlət Universitetinin Tarix-Filologiya fakültəsinin məzunudur. Gənc zabit bildirdi ki, hələ uşaq vaxtlarından hamı onun hərbçi olmaq istəyini bilirdi. Hətta dostları onu "komandir" deyə çağırırdılar. Hərbçi peşəsinə olan sevgisi onu ordu sıralarına gətirdi. "Ehtiyat zabit hazırlığı" kursunu bitirən Şahlar "leytenant" hərbi rütbəsi aldıqdan sonra ön xətdə xidmətə başladı. Söhbətinə davam edən Şahlar dedi ki, zabit vətənpərvər, mərd, cəsur, qorxmaz, igid, yüksək mənəvi dəyərlərə malik olmalıdır. Söhbətimiz zamanı onun Vətəninə, eyni zamanda, peşəsinə sonsuz sevgi ilə bağlı olduğunu hiss etməmək mümkün deyildi.

- Vətəni qorumaq hər birimizin müqəddəs borcudur. Vətənini sevən hər bir kəs onun uğrunda Hərbi andda və himnimizdə deyildiyi kimi, canından keçməyə də hazır olmalıdır. Fəxr edirəm ki, mən də Vətəni qorumaq kimi müqəddəs vəzifəni yerinə yetirənlər sırasındayam.

Şahlar Vətən sevgisi, nizam-intizamı, bilik və bacarığı ilə tabeliyində xidmət edən şəxsi heyətə nümunə ola bilən komandirlərdən biridir. Hərbi hissədə onu əsgərlərinə hərbi bilikləri həvəslə öyrədən, şəxsi heyətə vətənpərvərlik hissi, döyüş əzmi, qələbə ruhu aşılayan, məsuliyyətli və qayğıkeş komandir kimi xarakterizə edirlər. Leytenant Şahlar Rüstəmbəyli bildirdi ki, hərbçilərin əsas vəzifəsi Vətəni qorumaqdır". Hərbçi özü üçün yox, Vətəni üçün, xalqı üçün yaşayır".

Şahlar onu da qeyd etdi ki, xalqımızın keçmişinə, tarixinə sıx bağlı olan zabit xidmət sahəsində hər zaman özünü doğrultmağı bacarır: "Danmaq olmaz ki, düşmənlə təmas xəttində yerləşən bölmələrdə xidmət edən əsgərlərə milli-mənəvi dəyərlərin aşılanmasında zabitlərimizin müstəsna rolu vardır. Belə bir bacarıq isə komandir və zabitlərdən xüsusi peşəkarlıq tələb edir. Tabeliyində xidmət edən şəxsi heyətin mənəvi-psixoloji vəziyyətini öyrənmək üçün onlarla mütəmadi fərdi söhbətləşmə aparılmalı, səmimi münasibət qurulmalıdır. Düzgün işin nəticəsidir ki, ön xətdə xidmət edən əsgərlərimiz bütün mənəvi keyfiyyətlərə malikdirlər, onların əsas silahı Vətən sevgisidir. Xalqa, millətə, dövlətə, torpağa bağlı olan gənclər Vətənimizi yüksək səviyyədə düşmən təxribatından qorumağı bacarırlar".

Şahlar Rüstəmbəylinin timsalında bir daha əmin olduq ki, Azərbaycan Ordusunun zabitləri hərb peşəsinin incəliklərinə yaxşı bələddir, Vətənə sədaqətlə, məsuliyyətlə xidmət edir, bilikli və bacarıqlıdır.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

# Hərbi hissədə ideoloji işə həsr edilən tədbir keçirildi

*Müdafiə nazirinin təsdiq etdiyi illik fəaliyyət planına uyğun olaraq Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə hərbi hissədə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin son çıxışlarında orduda ideoloji işin gücləndirilməsi, hərbi vətənpərvərlik ruhunun yüksəldilməsi istiqamətində qarşıya qoyduğu vəzifələrin icrası ilə bağlı tədbir keçirildi.*





Tədbirdə əvvəlcə ümummilli lider Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Sonra H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi mayor İlkin Qayıbov şəxsi heyəti salamlayaraq tədbiri açıq elan etdi.

Bu gün, həqiqətən də, ölkəmizin çox çətin bir dönəmdən keçdiyini deyən mərkəz rəisi orduda peşəkarlığın artırılmasında döyüş hazırlığı ilə yanaşı, ideoloji işin mənəvi-psixoloji təminatın və ictimai-siyasi hazırlığın mühüm rol oynadığını diqqətə çatdırdı: "Bugünkü tədbirimiz Ali Baş Komandan cənab İlham Əliyevin orduda ideoloji təbliğat işinin, hərbi vətənpərvərliyin, dövlətçiliyin qorunması və milli-mənəvi dəyərlərin aşılanması haqqında verdiyi tapşırıqların əsasında təşkil edilib. Ordumuzda ideoloji işin təşkili və həyata keçirilməsi, ictimai-siyasi hazırlıq, mənəvi-psixoloji təminat ən yüksək səviyyədə qurulub. Ulu öndər Heydər Əliyev siyasi kursunu öyrənən, Azərbaycan Prezidenti, Ali Baş Komandanın ordumuza daim diqqət və qayğısını görən hərbi qulluqçularımız milli-mənəvi dəyərlərimizin qorunmasında mühüm amilləri əsas götürərək, işğal altında olan torpaqlarımızın azadlığı naminə döyüş bacarıqlarını, iradələrini daima artırırlar. Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində erməni təcavüzkarlarının törətdiyi təxribatlara qarşı xalqımız ordumuza həmrəylik nümayiş etdirdi, ona dəstək oldu, Ali Baş Komandanının ətrafında sıx birləşdi. O cümlədən dünya azərbaycanlıları xalqımızın haqq səsini yaşadıqları ölkələrdə ucadan səsləndirdilər. Mənfur ermənilərə səslənərək tarixi Qarabağ torpaqlarımızdan tez bir zamanda geri çəkilməsini tələb etdilər. Hörmətli tədbir iştirakçıları, bu gün biz Ali Baş Komandanın ətrafında bir yumruqtək birləşib ümumi düşmənimizə qarşı birlikdə mübarizə aparmalı, əzəli və əbədi torpaqlarımızı düşməndən azad etməliyik. Bu bizim ali məqsədimizdir.Yaşasın əbədi Azərbaycan, yaşasın Azərbaycan Ordusu!".

H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin ideoloji və hərbi kütləvi iş bölməsinin rəisi kapitan Fikrət Səmədov tədbirin keçirilməsində əsas məqsədin mahiyyətini şəxsi heyətə açıqladı və plan, ssenarisi haqqında məlumat verdi. Sonra tədbir iştirakçılarını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışını əks etdirən videoçarxa və Azərbaycanın dövlətçilik, hərb tarixindən bəhs edən tarixi xronikaya baxmağa dəvət etdi.

Daha sonra tədbirdə H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin mədəni-bədii iş üzrə təlimatçısı Gülxar Məmmədovanın Azərbaycanın dövlətçilik tarixi, xronoloji ardıcıllıqda bəhs olunan Azərbaycanın qazandığı uğurlar, qələbələr, şərəfli səhifələr, tarixi şəxsiyyətlər, onların tariximizə verdiyi töhfələr, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi və bu problem ətrafında yaranan münaqişələr, nəhayət Tovuz hadisələri və xüsusilə bütün dünyada bu hadisə ilə bağlı gedən informasiya müharibəsi haqqında geniş məruzəsi böyük maraqla dinlənildi. "Azərbaycan zaman-zaman yadelli işğalçılara qarşı qəhrəmanlıqla döyüşüb. Bu döyüşlərdə xalqımızın hərb tarixi, qəhrəmanlıq tarixi yaranıb. Xalqımız dövlətçilik ənənələrini yaşatdıqca, şərəfli ordu tarixinin salnaməsini də yazıb. Ümummilli liderimiz Heydər Əliyev hələ müstəqilliyimizin bərpa olunduğu ilk illərdə 1993-1994-cü illərdə deyirdi ki, "Tarixini bilməyən gənc vətənpərvər ola bilməz". Azərbaycanın dövlətçilik tarixinin dərin qatları var. Azıx, Gəmiqaya kimi ilk yaşayış məskənlərindən tutmuş, Manna, Midiya, Albaniya, Atropatena, Ağqoyunlular, Səfəvi dövləti və digər Azərbaycan ərazisində yaranmış dövlətlər tariximizin şərəfli səhifələridir. Şərqin ilk demokratik dövləti Azərbaycan Xalq Cümhuriyyətinin tarixi varisi hesab olunan bugünkü Azərbaycanımız tarixi, əzəli torpaqlarını Ermənistan silahlı qüvvələrinin işğalından azad edərək, müstəqilliyini sarsılmaz, əbədi, dönməz edəcək."

Tədbirdə qonaq qismində iştirak edən Əməkdar artist, bədii qiraətçi Ağalar Bayramovun səsləndirdiyi Vətənimizə, Azərbaycan bayrağına, şəhidlərimizə həsr edilən poeziya nümunələri şəxsi heyətdə böyük ruh yüksəkliyi yaratdı.

Tədbir hərbi vətənpərvərlik mahnılarından və ordu marşlarından ibarət konsert proqramı ilə davam etdi.

H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin hərbi qulluqçuları gizirlər Elçin Məmmədov, Ağabala Abdullayev, Vüsal Ağayev və Leyla Əliyevanın ifa etdikləri hərbi vətənpərvərlik ruhlu mahnı və marşları şəxsi heyətin alqışları ilə qarşılandı, onlara xoş ovqat bəxş etdi.

Orduda "Əsgərə məktub" layihəsinin daha da genişləndirilməsi məqsədilə mərkəzin əməkdaşı Səbinə Cəbiyeva və hərbi qulluqçusu gizir Naibə Həsənovanın təşkil etdiyi Bakı şəhəri, Sabunçu rayon 28 saylı tam orta məktəbin ibtidai sinif şagirdlərinin yazdığı məktublar əsgərlərə çatdırıldı. Eyni zamanda, əsgərlər məktəblilərə cavab məktubları ünvanladılar.

**Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu"**

# “Vətəni şərəflə qoruyuruq”

Zabit və gizirlərimizin peşəkarlığı Azərbaycan Ordusunun gələcəyini formalaşdıran əsas amillərdən biridir. Ordu sıralarına qədəm qoyan bir gəncin müqəddəs və şərəfli peşənin vərdişlərinə yiyələnməsində, müasir hərbi texnikanın sirlərinə yaxından bələd olmasında, vətənpərvər bir əsgər kimi formalaşmasında peşəkar zabit və gizirlərimizin rolu danılmazdır. Onlar Vətən sevgisinin, Vətənə bağlılığın, Vətən müqəddəsliyinin nə olduğunu Azərbaycan əsgərlərinə xidmətləri boyunca aşılayırlar. Azərbaycan əsgəri bu sevgi ilə xidmət edir, xidmətinin hər dönəmində Tanrının ona bəxş etdiyi Vətənə sahib olmanın qürurunu yaşayır.

Hərbi sahədə köklü dəyişikliklər, yeniləşmə ordu quruculuğunun uğurlarıdır. Hərbi xidməti həm də ən müqəddəs vətəndaşlıq borcu, həyat amalı bilən zabitlərimizdən biri kapitan Mustafa Əsgərlidir. 1990-cı ildə Ordubad rayonunun Bilər kəndində anadan olan zabit Heydər Əliyev adına Hərbi Liseyə daxil olmaqla arzusunu həyata keçirib və təhsilini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində başa çatdırıb.

"Azərbaycan xalqının güvənc yeri Azərbaycan Ordusu, bizlərin isə güvənc yeri Azərbaycan xalqıdır", - deyə kapitan Mustafa Əsgərli söhbətə başladı. - O inamdır zabit və əsgərlərə dəyanət verən, əminlik bəxş edən. O inamdır ordumuzu zəfərdən zəfərə aparan. Ordunun döyüş qabiliyyəti əsgərin döyüş hazırlığından asılıdır. Ermənistan tərəfindən işğal edilmiş torpaqlarımızın geri qaytarılması üçün güclü hazırlığa, maddi-texniki bazaya malik olan ordunun olması əsas şərtdir. Bunun üçün hərbi təcrübəmin artmasına xüsusi əhəmiyyət verirəm. Onu da qeyd edim ki, bu gün şəxsi heyətimiz elə bir səviyyədə döyüş hazırlığına malikdir ki, artıq düşmən qorxu içindədir. Dediklərimi Aprel və Günnüt zəfərləri, eyni zamanda, Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində gedən döyüşlər də sübut etdi.



Əsgərlərimiz üçün vətənpərvərlik əsas silahlardan biridir. İdeoloji iş və mənəvi-psixoloji təminat üzrə komandir müavinləri bu sahədə fəaliyyəti daha da gücləndirməlidirlər.

“Əgər biz əlimizə silah almışıqsa və bu silahdan Vətənin qorunması üçün istifadə edirikə, bu bizim şəref yolumuzdur”, - deyə kapitan Mustafa Əsgərli söhbətə davam etdi.

- Mübariz İbrahimov, Çingiz Qurbanov, Polad Həşimov, İlqar Mirzəyev və digər şəhidlərimizin keçdiyi şərəfli həyat yolu bugünkü hərbçilərə, xüsusən də əsgərlərə Vətən sevgisinin aşılanması üçün bir məktəbdir. Prezident, Ali Baş Komandan İlham Əliyev xalqımızın iradəsini ifadə edərək dəfələrlə deyib ki, Azərbaycan bir qarış torpağını belə düşmənə verməyəcək. Azərbaycan əsgərləri bu fikirləri rəhbər tutaraq döyüşkən əhval-ruhiyyəyə köklənib.

Zabit qeyd etdi ki, bu gün ardıcıl və sistemli şəkildə aparılan ordu quruculuğu prosesi mühüm mərhələdədir. İndi arxa cəbhədə də, düşmənlə üzbəüz təmas xəttində də yerləşən hərbi hissələrdə nizam-intizam, səliqə-sahman, yüksək döyüş ovqatı qürur və sevinc hissi daha yüksək səviyyədədir. Əsgər və zabitlərin Vətən, torpaq sevgisini duymaq, döyüş əzmini, qələbə ruhunu, yüksək mənəvi-psixoloji durumunu yaxından hiss etmək bir zabit üçün həm peşə fəaliyyətidir, həm də mənəvi borcdur.”

Mustafa Əsgərli onu da bildirdi ki, işğalçı Ermənistan ordusunu artıq Azərbaycanın Ordusu ilə müqayisə etmək ən azından sadəlövlük olardı. "Azərbaycan Ordusunu dünyanın ən inkişaf etmiş dövlətlərinin silahlı qüvvələri ilə müqayisə etmək olar. Hazırda Azərbaycan Ordusunun ən son elmi nailiyyətlərin bəhrəsi olan müasir hərbi-texniki bazası və bu texnikanı işlətməyə, ən əsası hərbi birləşmələrlə istənilən döyüşdən qalib çıxmağa qadir olan peşəkar zabit korpusu var. Azərbaycan Ordusu çoxdan arzuladığımız səviyyəyə çatıb. Xalqımız öz ordusu ilə fəxr edir, hər bir azərbaycanlı ailəsi övladını çox həvəslə ordu sıralarında xidmətə göndərir. Güclü ordu Azərbaycanın müstəqilliyinin və azərbaycançılıq məfkurəsinin zəmanətlərindən biridir. Vətən şərəflə qorunur".

**Mayor
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu"**




Salam, Vətənimizin qüruru - əsgəri! Sən məni bəlkə də heç vaxt tanımayacaqsan. Amma mən sənin qüdrətinə bələdəm, deməli, tanıyıram. Sən Vətənini canından üstün tutursan.

Mən və mənim ailəm döyüş bölgəsindən uzaqda yaşasaq da, ürəyimiz sizinlədir.

Vətənin səngərini də Vətən bilən, Vətəni qoruyan Azərbaycanın əsgəri, eşq olsun sizə. Vətən evimizdir, Vətən sərhəddən başlayır. Sərhəddə düşmənlə üz-üzə dayanan mərd və qorxu bilməyən Azərbaycan əsgəri.

Bu günlərdə cəbhədə vəziyyət gərginləşmişdi. Ermənilər dövlət sərhədlərimizi pozmuşdu. Sən də, sənin əsgər qardaşların da düşməni ağır məğlubiyyətə uğratdı. Onlar bir daha gördülər ki, Azərbaycan əsgəri yenilməzdir. Sənə və əsgər yoldaşlarına hamımızın güvənci sonsuzdur. Sizin sayənizdə mən bu gün rahat nəfəs alıram. Buna görə də hər nəfəsdə sizə təşəkkür edirəm. Çünki sizə, torpağa dəyən bir güllə, bir qəlpə bizim ürəyimizi dəlib keçir. O yaraların məlhəmi ancaq sizin qazanacağınız qələbə olacaq. Əgər uşaq olmasaydım mən də əlimə silah götürüb sizin yanınızda olardım. Təəssüf ki, bunu edə bilmirəm. Özün də unutma, əsgər dostlarına da de ki, biz yanınızda ola bilməsək də, ürəyimiz hər zaman sizinlədir. Bilirəm qorxmursunuz. Bacınız kimi mən yenə də deyirəm, siz qalib gələcəksiniz. Siz türk oğlu, Azərbaycan əsgərisiniz. Mən buna əminəm!

**Mələk MEHRABLI,**
**Qax şəhər**
**N.Allahverdiyev adına**
**2 nömrəli məktəb-liseyin**
**7-ci sinif şagirdi**

*Məişət şəraiti*

# “Təminatımız yüksək səviyyədədir”

*Son illər Azərbaycanın ordu quruculuğunda həyata keçirilən islahatlar əsgərlərin sosial həyatında da öz sözünü deyir. Hazırda ordumuzun bütün bölmələrində ən müasir səviyyədə sosial-məişət şəraiti yaradılıb. Şəxsi heyət heç nədən korluq çəkmədən Vətənin müdafiəsində inamla dayanıb.*





Bu günlərdə düşmənlə təmas xəttində yerləşən hərbi hissənin müasir şəraiti bizə xoş ovqat aşıladı. Burada xidmət edən əsgərlərin gülər üzləri, əhval-ruhiyyəsi də deməyə əsas verirdi ki, hər kəs yaradılan şəraitdən məmnundur və belə mühitdə xidmət etməkdən qürur duyur.

Nahar fasiləsində fürsət tapıb əsgər yeməkxanasına daxil oluruq. Geniş və yaraşıqlı zalda əsgərlərin nahar etməsi üçün istənilən imkanlar yaradılıb. Müasir avadanlıqlarla təmin edilən işıqlı zal bir azdan nahara gələn Vətənimizin müdafiəçilərini qəbul edir. Hamı baş geyimini çıxarıb yeməkxanaya daxil olur və aşpazlara yaxınlaşır. Hər kəsə növbə ilə yeməklər çəkilir. Bu mənzərəni seyr etdikcə insanda nikbin əhval-ruhiyyə yaranır. Cəbhə xəttində belə əlverişli xidmət şəraitinin yaradılması bir daha göstərir ki, gənclərimiz, həqiqətən də, ən müasir orduda xidmət edirlər. Bunu sözləri ilə əsgərlərimiz də təsdiqlədi.

- "Doğrudan da, xidmət şəraitimiz ürəkaçandır", - deyə Azərbaycan Texniki Universitetinin məzunu, əsgər Rəşad Ağayev bildirdi. - Burada bizə dadlı, ləzzətli xörəklər hazırlanır. Milli çeşiddə, yüksək keyfiyyətli ərzaqlardan bişirilən yeməklər, mövsümə uyğun salat və şirələr ürəyimizcədir. Hansı silahdaşımdan soruşsanız, o da dediklərimi təkrarlayacaq.

- Bəs sən necə, yeməklərdən razısanmı?

- Çox razıyam, - deyə əsgər Pərviz Məmmədov söhbətimizə qoşuldu. - Hər gün isti yeməklər hazırlanır, salatlar, meyvə şirələri verilir. Həvəslə, iştahla nahar etdiyimiz kimi, ürəklə də xidmət edirik.

Əsgər Xəzər Rzayev isə dedi ki, valideynləri onunla görüşə gələndə şəraitdən onlar da məmnun qalıb, ordunun rəhbərliyinə öz razılıqlarını bildiriblər. "Bu yaxınlarda valideynlərim yanıma gəlmişdi, hərbi hissəmizlə yaxından tanış oldular və yaradılan gözəl şəraitə görə rəhbərliyə təşəkkürlərini bildirdilər. Komandirlərimiz daim bizimlə maraqlanır, üst-başımıza, paltarlarımıza, yataq dəstlərimizin təmiz və səliqəli olmasına diqqət yetirirlər. Bir sözlə, hərbi xidməti keçmək üçün hər cür şəraitimiz var. Üzərimizə tək vəzifə düşür - torpaqlarımızın keşiyində inamla dayanmaq."

Mətbəxdə aşpaz qadınlarla da görüşdük. Onlarla söhbətləşdikcə hər birində əsgərlərimizə olan ana sevgisini hiss edirsən.

- Əsgərlərin hər birini doğma övladımız, qardaşımız bilirik, - deyə aşpaz Emilya Əliyeva bildirdi. - Masalarda nahar edən əsgərlərə baxıram, iştahla nahar etdiklərini görəndə özüm də sevinirəm. Hər biri övladım, qardaşımdır. Daim çalışırıq ki, əsgərlərimiz üçün dadlı və keyfiyyətli yeməklər hazırlayaq, onlar sağlam, gümrah, möhkəm olsunlar, çünki torpaqlarımızı, Vətənimizi düşməndən qoruyurlar.

Aşpaz Məleykə Vəliyeva da bildirdi ki, bir neçə il öncə qadınların orduda məişət işlərində çalışdığını eşidəndə o da sevinib və hərbi xidmətə gəlmək üçün komandanlığa müraciət edib. "Mən bu rayonun sakiniyəm, doğma el-obamızı xain düşməndən mətinliklə qoruyan gənclərimiz üçün yemək hazırlamasında əməyim olduğu üçün qürur duyuram. Gördüyünüz bu əsgərlər gecə-gündüz torpaqlarımızın keşiyində dayanırlar, onların həvəslə nahar etdiyini görəndə mən də sevinirəm. Yəqin ki, nahar vaxtı əsgərlərə fikir verdiniz, görün nə qədər həvəslə nahar edirlər, çünki yeməklərimiz dadlı və keyfiyyətlidir. Dövlətimizin və ordumuzun rəhbərliyi sağ olsunlar ki, əsgərlərə belə yüksək qayğı göstərirlər.

Səbinə Orucova da dedi ki, əsgərlərə bir ana, bacı kimi qayğı göstərməyi özünə əsl vətəndaş haqqı bilir. "Müstəqil dövləti, qüdrətli Vətəni, yurdu ilə qürur duyan hər kəs öz ordusuna, əsgərinə qayğı göstərməyi özünə borc bilməlidir. Bizim qohumlardan da əvvəllər Azərbaycan Ordusunda xidmət edənlər olub, deyirlər ki, heç bir vaxt indiki şərait ordumuzda olmayıb. Amma indi vəziyyət tamam dəyişib, hərbi hissələrdə təcrübəli həmkarlarımın hazırladığı yeməklərdən hər kəs razılıq edir".

Hərbi hissənin cavabdeh zabitlərindən olan Ziya Səmədov isə qeyd etdi ki, əsgərlərlə birgə zabit, gizirlər də burada nahar edirlər və hər dəfə xörəklərin keyfiyyətindən razı qalırlar. "Sağ olsun dövlətimiz, komandanlığımız nümunəvi hərbi xidmət üçün lazım olan bütün şərait yaradılıb. Belə mühitdə əsgərlər də ürəklə, məsuliyyət hissi ilə xidmət edir və bütün tapşırıqların öhdəsindən bacarıqla gəlirlər."

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyədə FETÖ terror təşkilatı üzvlərinin saxlanılması istiqamətində əməliyyat keçirilib



Türkiyənin 14 vilayətində FETÖ terror təşkilatının üzvlərinin saxlanılması istiqamətində genişmiqyaslı əməliyyat keçirilib.

Əməliyyat zamanı terror təşkilatı ilə əməkdaşlıqda şübhəli bilinən 27 nəfər saxlanılıb. Saxlanılanlar arasında Türkiyə Silahlı Qüvvələrinin hazırda fəaliyyətdə olan və hərbi xidmətdən uzaqlaşdırılan zabitləri də var.

Əməliyyatlar Türkiyənin Adana, İstanbul, Ankara, Antalya, Mersin, Hakkari, Diyarbəkir, Şanlıurfa, Sivas, Kocaeli, Bursa, Kayseri, Konya və İzmir vilayətlərində reallaşdırılıb.

Bu istiqamətdə əməliyyatlar davam etdirilir.

### Bağdadda terror aktı törədilib



İraqın paytaxtı Bağdadda daha bir terror aktı törədilib.

Hökumət binalarının və diplomatik nümayəndəliklərin yerləşdiyi "Yaşıl vadi" adlanan əraziyə iki raket zərbəsi endirilib. Buradakı ABŞ səfirliyinin binası da dəfələrlə terror hücumlarına məruz qalıb.

İraqın "Əl-Sumeriyyə" televiziya kanalının xəbərinə görə, raket zərbələri nəticəsində bəzi binalara yüngül zərər dəyib. Terror aktına görə məsuliyyəti heç bir qruplaşma üzərinə götürməyib.

Xüsusi xidmət orqanları hadisə yerində təhqiqat aparırlar.

### Litva tank əleyhinə sistemlər üçün ABŞ-dan raketlər alıb



ABŞ Litvaya hərbi yardım çərçivəsində dəyəri 31 milyon dollardan çox olan tank əleyhinə "Javelin" sistemləri üçün əlavə raketlər göndərib.

Litva Müdafiə Nazirliyi xəbər verir ki, bu məbləğə 2019-cu ilin sonunda imzalanan 13 milyon ABŞ dolları məbləğində satınalmaya dair saziş daxildir.

Ölkənin müdafiə qabiliyyətini gücləndirilməsi məqsədilə Quru Qoşunlarının bölmələri bu sistemlərlə təchiz ediləcək.

Litva növbəti on il ərzində ABŞ-dan 104 milyon dollar məbləğində raket almağı planlaşdırır.

"ABŞ Baltikyanı bölgənin təhlükəsizliyini təmin edən strateji tərəfdaş və əsas müttəfiqdir. Amerikanın tank əleyhinə "Javelin" sistemi Litva Silahlı Qüvvələrinin, xüsusilə döyüş hazırlığının uzunmüddətli gücləndirilməsi və müdafiə qüdrətinin möhkəmlənməsinə mühüm töhfə verir", - deyə nazirliyin məlumatında qeyd olunub.

### Terrorçu Almaniyadan Livana deportasiya edilib



Almaniyada həbsxanada saxlanılan təhlükəli bir terrorçu bu günlərdə şəxsi təyyarə ilə Beyruta deportasiya edilib. Hakimiyyət orqanları bu barədə yalnız bu gün məlumat veriblər.

Yusif Məhəmməd əl-Xadib ad-soyadlı bu terrorçu 2006-cı ildə Köln şəhərinin mərkəzi vağzalında iki qatarı partlatmağa cəhd göstərib. O vaxt çamadanlarda yerləşdirilmiş bombalar xoşbəxt bir təsadüf nəticəsində partlamayıb.

Ömürlük həbs cəzasına məhkum edilmiş terrorçu 14 ildən sonra mənşə ölkəsinə göndərilib. Almaniya ilə Livan arasında müntəzəm hava reysləri olmadığına görə, onun şəxsi təyyarədə deportasiya edilməsi təqribən 20 min avroya başa gəlib.

Almaniya Daxili İşlər Nazirliyinin məlumatına görə, bu ilin altı ayı ərzində ölkədən 5667 nəfər, o cümlədən 30 terrorçu deportasiya edilib.

**AZƏRTAC-ın materialları əsasında**

*Fiziki hazırlıq*

# Sağlamlıq döyüş hazırlığının tərkib hissələrindəndir




Sağlam bədəndə sağlam ruh olar. Sağlamlıq ən böyük nemətlərdən biridir. Hər bir kəs onu qorumağı bacarmalı və öz sağlamlığının qeydinə qalmalıdır. Sağlamlığı qoruyub saxlamağa idman kömək edir. İdman həyat və sağlamlıqdır. Hər kəs kimi gərək ordumuzun əsgərləri də fiziki cəhətdən sağlam, qüvvətli və güclü olsun. Düşmənlə təmas xəttində yerləşən hərbi hissələrin birində şəxsi heyətin fiziki hazırlığının təmin edilməsi üçün yaradılan şəraitlə tanış olduq. Hərbi hissədə səliqə-sahman hökm sürürdü. Müdafiə Nazirliyi rəhbərliyinin göstərdiyi diqqət və qayğı nəticəsində müasir standartlara uyğun qurulan idman şəhərciyi hərbi qulluqçularımızın fiziki hazırlıqlarını artırmaları, onların əsl hərbçi kimi formalaşmalarına şərait yaradır. Belə gözəl şəraitdə əsgərlərin günün nizam qaydasına uyğun olaraq fiziki hazırlıq məşğələsi ilə məşğul olmasının şahidi olduq.

Şəxsi heyət günün nizam qaydasına uyğun olaraq fiziki hazırlıq məşğələsini yerinə yetirir, - deyə baş leytenant Pərvin Əhmədov bildirdi. Zabit keçirilən idman məşğələləri barədə bizə geniş məlumat verdi. "Əsgərlərimiz müxtəlif idman qurğularından yararlanaraq normativləri yüksək peşəkarlıqla yerinə yetirirlər. Normativlərə 100 və 3000 metr məsafələrə qaçış, turnik, paralel qollarda hərəkət, pres, uzanaraq dayaqda qolların bükülüb-açılması və s. daxildir. Əsgərlərimizin fiziki hazırlıq məşğələsinə həvəsləri böyükdür. Əlbəttə, fiziki cəhətdən güclü olan əsgər döyüş meydanında çətin vəziyyətlərdən qalib çıxacaq. Müharibə zamanı əsgər fiziki cəhətdən güclü olmalıdır ki, güllə atəşi altında yaralı silah yoldaşını döyüş meydanından təxliyə edə bilsin. Digər tərəfdən isə düşmənlərimizlə üz-üzə gəldikdə onları əlbəyaxa döyüşdə məhv etsin."

Sumqayıt şəhərindən ordu sıralarına çağırılan əsgər Coşqun Hüseynzadə dedi ki, kiçik yaşlarından idmana böyük maraq göstərib. İdmanın boks növü ilə məşğul olub, hətta 2015-ci ildə keçirilən boks üzrə respublika çempionatının qalibi olub. "Mütəmadi məşq etdikdən sonra müəllimim kiçik yarışlarda özümü sınamaq üçün şərait yaratdı. Etiraf edim ki, ilk dəfə yarışa qatıldıqda çox həyəcanlı idim. Özümü ələ almağa çalışırdım. Öz-özlüyümdə deyirdim ki, burada çətin heç nə yoxdur, mən bunu bacara bilərəm. Rinqə çıxdıqda, rəqibimlə üz-üzə gəldikdə həyəcan əvəzinə döyüşməyi və qalib gəlməyi düşünürdüm. Şükürlər olsun ki, respublika çempionu oldum". Sonda əsgər Coşqun Hüseynzadə qeyd etdi ki, əsgər kimi də qalibiyyət sevincini yaşamaq arzusundadır. "Mən arzu edirəm ki, Ali Baş Komandan cənab İlham Əliyevin döyüş əmri ilə doğma Qarabağımızı düşmən işğalından azad edək və Şuşada, Laçında təşkil olunan idman yarışlarında uğurlar qazanım".

Digər müsahibim isə əsgər Nadir Gülmədov oldu. "İdmanla məşğul olmaq tək insanın sağlamlığını möhkəmləndirmir, həmçinin insanda ruh yüksəkliyi əmələ gətirir, insanın zirək, çevik və dözümlü olmasına səbəb olur. İdman insanda öz bədənini idarə etmək üçün əzmkarlıq yaradır. Sirr deyil ki, idmanla məşğul olan insanlar daha dözümlü və intizamlı olurlar. Bundan əlavə, idman insanda kollektivlik, dostluq, yoldaşlıq, bir-birinə dayaq olmaq və vətənpərvərlik hisslərini yüksəldir. İdman insanı tək fiziki deyil, eyni zamanda, ruhi cəhətdən də tərbiyələndirir. Bizim hər birimiz anlayırıq ki, hərbi qulluqçu gərək fiziki cəhətdən sağlam, çevik və güclü olsun. Ona görə də fiziki hazırlıq saatlarında və asudə vaxtlarımızda bizim üçün yaradılan bu gözəl şəraitdən maksimum yararlanmağa çalışırıq. Gündəlik müəyyən məsafəni qaçır, turnik və digər alətlərdə normativlər yerinə yetiririk. Bütün bunların nəticəsində zəif uşaqlar da sağlam və güclü bir cavana çevrilirlər".

Əsgər Elvin Alıyev də mülki həyatda idman yarışlarında iştirak edib və bir sıra uğurlara imza atıb. Güləşə böyük maraq göstərən Elvin az vaxt ərzində idmanın sirlərinə dərindən yiyələnib. Bu səbəbdən idmanda uğurlar qazanıb. Əsgər Elvin Alıyev tərxis olduqdan sonra da yenidən idmanla məşğul olacağını və yeni nailiyyətlər əldə edəcəyini bildirdi. "Ümumilikdə respublikamızda idmanla məşğul olmaq üçün bütün lazımi şəraitlər yaradılıb. Hər il yeni-yeni stadionlar, idman zalları və üzgüçülük hovuzları açılaraq idmansevərlərin ixtiyarına verilir. Ordumuzda da idmanla məşğul olmaq üçün bütün lazımi şərait var. Bizim üzərimizə düşən vəzifə isə fiziki hazırlıq məşğələlərində bütün gücümüzlə iştirak etmək və komandirlərimizin verdiyi tapşırıqları layiqincə yerinə yetirə bilməkdir. Fiziki hazırlıqlı olan hərbi qulluqçu qarşıya qoyulmuş çətin tapşırıqları asanlıqla yerinə yetirməyə qadirdir. Bunun üçün də hər birimiz var qüvvəmizlə çalışmalıyıq ki, yüzlərlə soydaşımızın canına susayan, minlərlə vətəndaşımızı elindən-obasından didərgin salan erməni qəsbkarlarından qisasımızı alaq. Ali Baş Komandanımızın döyüş əmri ilə onları məhv edəcəyik. Aprel döyüşləri, Günnüt zəfəri bir daha sübut etdi ki, ordumuz güclüdür və qələbə qazanmağa hər an hazırdır!".

Digər əsgərlər də Ali Baş Komandan İlham Əliyevin döyüş əmri ilə torpaqlarımızı işğaldan azad edəcək döyüşləri səbirsizliklə gözlədiklərini bildirdilər.

**Leytenant**
**Oruc MUSTAFAYEV,**
**"Azərbaycan Ordusu"**

# Müddətdən artıq həqiqi hərbi xidmət keçmək istəyənlərin nəzərinə

Azərbaycan Ordusunda müddətdən artıq həqiqi hərbi xidmətə könüllü daxil olmaq arzusunda olan ən azı ümumi orta təhsilli, qanunla müəyyənləşdirilmiş müddətli həqiqi hərbi xidmətini başa vurmuş, 35 yaşınadək hərbi vəzifəlilər avqustun 6-dan 31-dək müvafiq sənədlərlə birliklərin, qoşun növlərinin və hərbi hissələrin qərargahlarında fəaliyyət göstərən qəbul komissiyalarına müraciət edə bilərlər.

"Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"na qəbul olunmaq üçün müraciət etmiş vətəndaşlar qəbul komissiyaları tərəfindən hərbi xidmətə yararlılıq dərəcələrinin müəyyən edilməsi məqsədi ilə Müdafiə Nazirliyinin tibb müəssisələrinə göndərilir. Hərbi Həkim Komissiyalarının qərarına əsasən hərbi xidmətə yararlı hesab edilmiş şəxslər qəbul imtahanlarına buraxılırlar.

Fiziki hazırlığı, ümumi bilik səviyyəsi, düşünmə qabiliyyəti, peşə maraqları, ünsiyyət qurmaq, liderlik və qərar qəbuletmə bacarıqları, həmçinin fərdi-psixoloji və digər keyfiyyətlərinin öyrənilməsi məqsədilə keçirilən imtahanları müvəffəqiyyətlə vermiş namizədlər kursa qəbul edilirlər.

Kursu müvəffəqiyyətlə başa vuran şəxslərlə 3 (üç) il müddətinə bağlaşma imzalanır və onlar ixtisaslarına uyğun müvafiq vəzifələrə təyin olunurlar.

Namizədlər qəbul komissiyalarına müraciət edərkən aşağıdakı sənədləri təqdim etməlidirlər:

- kursa qəbul olunmaq barədə ərizə (qəbul komissiyasının sədrinə);
- şəxsən yazılmış tərcümeyi-hal, əlyazma ilə 1 nüsxədə, çap variantı 2 nüsxədə;
- xidmət (iş və ya təhsil) yerindən xasiyyətnamə;
- təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti - 2 nüsxədə;
- doğum haqqında şəhadətnamənin təsdiq edilmiş surəti - 2 nüsxədə;
- şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti - 2 nüsxədə;
- nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda) - 2 nüsxədə;
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surətləri (uşaq olduqda) - 2 nüsxədə;
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış - 2 nüsxədə;
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas, 2 ədəd 3x4 sm və 2 ədəd 4,5x6 sm ölçüdə);
- qeydiyyatda olduğu poliklinikadan (dəri-zöhrəvi, vərəm, ruhi-əsəb, narkoloji və son 5 (beş) ildə infeksion xəstəliklərlə bağlı müraciət edib-etməməsi barədə) arayış;
- hərbi biletin bütün vərəqlərinin surəti (notarial qaydada təsdiq olunmuş) - 2 nüsxədə;

**Müraciət etmə yeri:** Birliklərin, qoşun növlərinin və hərbi hissələrin qərargahlarında fəaliyyət göstərən qəbul komissiyaları.

**Müraciət etmə vaxtı:** 2020-ci il avqustun 6-dan 31-dək, hər gün (bazar günləri istisna olmaqla) saat 09.00-dan 18.00-dək.

**Qeyd: Müddətdən artıq həqiqi hərbi xidmətdən "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin 156-cı maddəsinin "e" bəndinə (xidməti uyğunsuzluğa görə) müvafiq olaraq ehtiyata buraxılmış hərbi qulluqçuların və məhkumluğunun ödənilməsindən asılı olmayaraq məhkum olunmuş hərbi vəzifəlilərin kursa qəbul üçün müraciət etmələri xahiş olunur.**

*Hərbi texnikalar, silahlar*

# "Podnos" 2B14 minaatanı





"Podnos" 2B14 82 mm-lik minaatanı Qorki adına Maşınqayırma zavodunun konstruktor bürosunda hazırlanıb. "Podnos" 2B14 minaatanı düşmənin canlı qüvvəsinin və atəş vasitələrinin məhv edilməsində motoatıcı bölmələrə dəstək üçün yaradılıb. "Podnos" minaatanı düşmənin yaxın ərazidə yerləşən səngər və anbarlarında, ev və hasarların arxasında yerləşən canlı qüvvəsinin məhv edilməsində əvəzsiz vasitələrdən biri sayılır. Səhra vəziyyətində minaatan daşınır, söküləb-yığılır. Minaatanın döyüş vəziyyətində çəkisi 42 kq, qəlpə minasının çəkisi 3,14 kq, atəş tezliyi tuşlamanın təshih edilməsi zamanı dəqiqədə 15 atış, təshih edilmədən dəqiqədə 22 atışdır. Maksimal atəş uzaqlığı uzaqvuran təchizatla 3922 metr, tam dəyişən təchizatla 3100 metrdir. Minimal atəş uzaqlığı 85 metrə qədərdir. Heyəti 2 nəfərdən 4 nəfərə qədərdir. Optik MPM-44M markalı nişangahı var.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Mahmud MÖHBALIYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 479
Nüsxə 3980